# Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında ictimai şuranın iki illik fəaliyyət hesabatı

(2023–2025)

# 1. Şəhid ailələrinin və aztəminatlı təbəqənin dəstəklənməsi.

Bir şəhid övladının yarımçıq qalmış təhsili bərpa olunmuş, müvafiq sənədləşmə işləri aparılaraq attestat alması təmin edilmişdir.

Müharibə iştirakçıları, qazilər və şəhid ailələri ilə mütəmadi görüşlər keçirilmiş, onların təhsil və sosial ehtiyaclarının öyrənilməsi istiqamətində addımlar atılmışdır.

# 2. Sosial həssas qrupların təhsil imkanlarına çıxışı

Sağlamlıq imkanları məhdud olan uşaqların ev şəraitində təhsil almaları üçün müvafiq qurumlarla əlaqə yaradılmış, bu istiqamətdə dəstək göstərilmişdir.

Narkomaniyadan əziyyət çəkən bir çox gəncə dəstək göstərilmiş və bir gəncə də reabilitasiya dəstəyi göstərilmiş, müalicə sonrası peşə təhsili və işlə təminat məsələləri üzrə istiqamətləndirmə aparılmışdır.

## 3.Maarifləndirici tədbirlər və ictimai iştirakçılıq

Məcburi köçkün məktəblərində, o cümlədən Sumqayıt şəhəri 31 saylı məktəbdə “Zərərli vərdişlərə yox deyək” adlı maarifləndirici tədbir təşkil olunmuşdur.

Seçkilərdə qadınların fəallığının artırılması, sağlamlıq imkanları məhdud və sosial həssas qrupdan olan qadınların peşə təhsili almasına dəstək məqsədilə görüşlər keçirilmiş və müvafiq təşviqat işləri aparılmışdır



# 4. Sosial həmrəylik və xeyriyyə tədbirləri

SMA xəstəsi Fateh üçün konsert təşkil edilmiş, tədbir nəticəsində 16.226 manat vəsait toplanaraq birbaşa ailənin hesabına köçürülmüşdür.

Daha sonra lazım olan bütün məbləğ toplanmış uşaq tam müalicə olunmuş və sağalmışdır.

# 5. Hüquqi yardım və müdafiə

4 nəfər qadının aliment hüquqlarının təmin olunmasına köməklik göstərilmişdir

Boşanma prosesi ilə bağlı müraciət edən qadınlara hüquqi yardım göstərilmişdir

# Məişət zorakılığına bağlı dəstək.

Məişət zorakılığından əziyyət çəkən 2 ailəyə psixoloji və sosial dəstək göstərilmişdir

Məişət zorakılığı ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilmiş,qadınlara hüquqları izah olunmuşdur

# İctimai tədbirlər

Müntəzəm olaraq hər iki aydan bir Laçın şəhərində qadınlarla görüşlər keçirilmişdir.

Laçın şəhər məktəbində şagird və müəllim heyəti ilə maarifləndirici görüş təşkil olunmuşdur.

Komitənin dəstəyi ilə COP tədbirlərində iştirak etmiş, ictimaiyyətlə əlaqələr və məlumatlandırma işlərində fəallıq nümayiş etdirmişik.

# Tövsiyyəmiz

Yeni formalaşan ictimai şura üzvlərinə tövsiyyə edirik ki, bu uğurlu təcrübədən bəhrələnərək cəmiyyətin sosial rifahına xüsusilə ailə,qadın və uşaqları hüquqlarının müdafiəsinə yönəlik fəaliyyətlərini davam etdirsinlər.

# Fəaliyyətimizdən fotolar
























Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında fəaliyyət göstərmiş əvvəlki ictimai şuranın üzvləri olaraq, uzun illər ərzində göstərdiyi dəyərəli xidmətlərə, səmərəli əməkdaşlığa və qadın hüquqlarının qorunması sayəsində apardığı işlərə görə hörmətli Bahar xanım Muradovaya və peşəkar kollektivinə təşəkkürümüzü bildiririk.

# Diqqətiniz üçün təşəkkürlər